

# Qaradağ

# Azərbaycanın güclü sənaye mərkəzinə çevrilir

**Respublikamızın bütün şəhər və rayonlarında müşahidə edilən abadlıq-quruculuq və yüksəliş Xəzər dənizinin sahili boyunca şimaldan cənuba doğru 106 kilometr məsafədə uzanan, kifayət qədər sənaye potensialı olan paytaxtın Qaradağ rayonunda da özünü qabarıq büruzə verir. Son illər rayonun sosial-iqtisadi həyatında çox böyük müsbət dəyişikliklər baş vermişdir. Ölkəmizdə dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən Dövlət proqramları Qaradağ rayonunda da uğurla icra olunur.**



Mövcud potensialın səmərəli reallaşdırılması, əmək ehtiyatlarının və digər resursların konkret məqsədlərə yönəldilməsi, ölkə başçısı cənab İlham Əliyevin imzaladığı Dövlət proqramlarından, fərman və sərəncamlarından irəli gələn vəzifələrin böyük əzmlə və bacarıqla həyata keçirilməsi rayonun uğurlarını şərtləndirən əsas məqamlardır. Aparılan abadlıq və quruculuq tədbirləri, eyni zamanda rayonun iqtisadi göstəriciləri də qarşıya qoyulan vəzifələrin uğurla reallaşdırıldığını, rayonun öz üzərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəldiyini göstərir. Əlverişli coğrafi mövqeyə və kifayət qədər sənaye potensialına malik olan Qaradağ rayonu Azərbaycanın ən iri neft-qaz və qeyri-neft sənaye müəssisələrinin yerləşdiyi müasir sənaye mərkəzlərindən biridir. Ümumilikdə hesablasaq, bu gün rayon ərazisində 90 sənaye müəssisəsi var ki, onlardan 22-si respublika əhəmiyyətli iri istehsal müəssisələridir. Həmin sənaye müəssisələrinin əsas fəaliyyət istiqaməti neft və qaz hasilatı, sement, tikinti materiallarının istehsalı, o cümlədən tikinti və əhəng daşı istehsalıdır. Qaradağ rayonunun inzibati ərazi vahidliyinə daxil olan qəsəbələrin hər birinin yaranışı məhz onun ərazilərindəki zəngin təbii sərvətlərlə birbaşa bağlıdır.

Azərbaycan Prezidenti onun üçün hər zaman doğma olan Qaradağ rayonuna təkcə 2018-ci ilin doqquz ayı ərzində altı dəfə səfər edib. Bu səfərlər çərçivəsində Prezident cənab İlham Əliyev yanvarın 9-da Bakı Beynəlxalq Dəniz Ticarət Limanı kompleksində RO-RO terminalının, mayın 14-də Bakı Beynəlxalq Dəniz Ticarət Limanı kompleksinin, mayın 24-də məcburi köçkünlər üçün salınmış "Qobu Park" yaşayış kompleksinin, eyni zamanda Lökbatan-Qobu avtomobil yolunun, mayın 29-da Səngəçal terminalında Cənub Qaz Dəhlizinin açılışında, avqustun 1-də Lökbatan qəsəbəsində Qarabağ, Böyük Vətən müharibələri, Çernobıl əlillərinə və şəhid ailələrinə mənzillərin və avtomobillərin verilməsi mərasimində və avqustun 13-də Lökbatan qəsəbəsində Abşeron Logistika Mərkəzinin açılışı mərasimində iştirak etmişdir. Prezident İlham Əliyevin Qaradağ rayonuna səfərləri hesabat ilinin ən mühüm və yaddaqalan hadisələrindən olmuşdur.

Son illərdə Qaradağ rayonu ərazisində abadlıq-quruculuq istiqamətində görülən işlər rayon sakinləri tərəfindən rəğbətlə qarşılanmış, sakinlərin kommunal, həmçinin digər sosial sahələrdə mövcud olan bir sıra problemləri öz müsbət həllini tapmışdır. Prezident cənab İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq Qaradağ rayonu ərazisində həyata keçirilən genişmiqyaslı abadlıq-quruculuq işlərinin tərkib hissəsi kimi, rayonun qəsəbələrində yeni parklar, yaşayış məntəqələrində nümunəvi məhəllələr salınmış, park və məhəllələrdə müasir oturacaqlar, uşaq idman-oyuncaq elementləri quraşdırılmış, yol kənarlarına və məhəllələrə çəmən örtüyü salınmış, yaşıllıq sahələrinə dekorativ ağac növləri əkilmişdir.

Rayon ərazisində mərhələli və planlı şəkildə həyata keçirilən abadlıq-quruculuq işləri çərçivəsində 2018-ci ilin 9 ayı ərzində rayonun qəsəbələrarası və məhəlledaxili yollarında, yaşayış binalarının fasad və dam örtüklərində, park və meydanlarda, həmçinin digər infrastruktur sahələrində yenidənqurma və əsaslı təmir işləri aparılmış, bu istiqamətdə işlər davam etdirilməkdədir.

Rayon Mənzil Kommunal Təsərrüfatı Birliyinin mənzil fondu üzrə yaşayış binalarının dam örtüyündə ümumilikdə 73 800 kvadratmetr əsaslı təmir işləri aparılmışdır. Yaşayış binlarının ümumi istifadə sahələrində 79 bloku əsaslı təmir edilmiş, 3200 kvadratmetr blok pəncərələri şüşələnmiş, 440 ədəd pəncərə və 160 ədəd blok giriş qapısı təmir edilmiş və ya yenisi ilə əvəz olunmuşdur. Yaşayış binalarında 4480 metr tüstü bacası, 3200 metr su navalçaları, 1600 metr daxili istilik sistemi boruları və 2200 metr elektrik xətləri təmir edilmişdir.

IDEA İctimai Birliyinin təşkilatçılığı və Qaradağ Rayon İcra Hakimiyyətinin dəstəyi ilə həyata keçirilən "Bizim həyət" layihəsi çərçivəsində rayonun Lökbatan qəsəbəsi, İntiqam Nəbiyev küçəsi 37, 41 və Hüseyn Məmmədov küçəsi 9 saylı ünvanda çoxmənzilli yaşayış binalarının fasadları və giriş hissələri tam təmir olunmuş, ərazidə 25 ədəd küçə işıqları, 12 kölgəlik quraşdırılmış, 102 kvadratmetr betonlama, 3280 kvadratmetr suvaq, 724 kvadratmetr hörgü işləri görülmüş, 5000 kvadratmetr yeni yaşıllıq sahəsi və 1200 kvadratmetr asfalt örtüyü salınmışdır. Layihə çərçivəsində abadlaşdırılan və 2 hektar sahəsi olan həyətdə əlil və sağlamlıq imkanları məhdud insanların rahat hərəkəti və bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əyləncə qurğuları yerləşdirilmiş, futbol meydançası və idman alətlərindən ibarət kiçik meydança salınıb. Aprel ayının 14-də Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva həyətin açılışında, o cümlədən tədbir zamanı keçirilmiş kütləvi ağacəkmədə iştirak edib.

Cari ilin sentyabr ayında rayonun Lökbatan qəsəbəsi Şahin Xəlilov küçəsində yeni salınmış abad məhəllə və 300 nəfərlik xeyir-şər evi sakinlərin istifadəsinə verilmişdir. Yeni abad məhəllədə olan binaların 1100 kvadratmetr dam örtüyü təmir edilmiş, 5000 kvadratmetr yeni yaşıllıq sahəsi, 2000 kvadratmetr asfalt örtüyü salınmış, 500 kvadratmetr tamet, 4000 poqonmetr bordür quraşdırılmışdır. Blok və binaların fasadlarında 46250 kvadratmetr emulsiya işləri görülmüş, 46 ədəd küçə işıqları, 268 ədəd blok işıqları, 3 uşaq meydançası, 6 ədəd kölgəlik və 16 ədəd müşahidə kameraları quraşdırılmışdır. Sakinlərin asudə vaxtlarının səmərəli keçirməsi üçün açıq havada şahmat lövhəsi quraşdırılmışdır.

Qaradağ rayonunun Lökbatan qəsəbəsinin şimal-şərqində, Lökbatan-Qobu yolunun 3 kilometr şərq hissəsində məcburi köçkünlər üçün salınmış "Qobu Park" yaşayış kompleksinin təməli 2017-ci il mayın 30-da Birinci vitse-prezident Mehriban xanım Əliyevanın iştirakı ilə qoyulub. Tikinti işləri yüksək səviyyədə həyata keçirilmiş və 2018-ci ilin may ayında başa çatdırılmışdır. Yaşayış kompleksinin ümumi sahəsi 6,4 hektardır. Yaşayış kompleksinin təməli Layihə üzrə hər biri 2 bloklu, 9 mərtəbəli 1026 mənzilli 11 yaşayış binası inşası olunub. Yaşayış kompleksinə üçmərtəbəli məktəb binası və uşaq bağçası daxildir. Yeni yaşayış kompleksində digər zəruri infrastruktur obyektləri - 350 yerlik mərasim evi, poçt, tibb, polis məntəqələri və mənzil-istismar idarəsi yaradılıb. Ərazidə 35 min kilovatlıq yarımstansiya inşa edilib, istirahət parkı salınıb, uşaq meydançaları yaradılıb. Kompleks salınarkən elektrik, su, qaz, istilik təchizatı və suvarma sisteminin, rabitə və televiziya şəbəkəsinin qurulmasına xüsusi diqqət göstərilib, kanalizasiya şəbəkəsi yaradılıb. Kompleksdə 222 yerlik uşaq bağçası və 624 şagird yerlik tam orta məktəb də inşa olunub. 2018-ci ilin 24 may tarixində "Qobu Park" yaşayış kompleksinin açılış mərasimində Azərbaycan Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva iştirak etmişlər. Hazırda Qobu park yaşayış kompleksində 1800 məcburi köçkün ailəsi üçün 13 ədəd 10 mərtəbəli və Ümid qəsəbəsində isə 300 məcburi köçkün ailəsi üçün 4 ədəd 5 mərtəbəli yaşayış binalarının, uşaq bağçasının və xeyir-şər evinin tikintisi davam etdirilir.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən sosialyönümlü siyasətin tərkib hissələrindən biri də müasir yol infrastrukturunun yaradılmasıdır. 2016-cı ilin iyul ayında Prezident cənab İlham Əliyevin imzaladığı sərəncama əsasən may ayının 24-də Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən uzunluğu 7 kilometrdən çox olan Lökbatan-Qobu avtomobil yolu əsaslı şəkildə yenidən qurulub istifadəyə verilmişdir. Hazırda Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən uzunluğu 13.8 kilometr olan Lökbatan-Qızıldaş, uzunluğu 24 kilometr olan Sanqaçal-Çeyildağ və uzunluğu 9.1 kilometr təşkil edən Lökbatan-Güzdək avtomobil yolunun yenidən qurulması işləri davam etdirilir.

Qobustan qəsəbəsində 17 saylı birləşmiş şəhər xəstəxanasının yenidən qurulması məqsədilə Azərbaycan Respublikasının 2011-ci il dövlət büdcəsində nəzərdə tutulan Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan və Nazirlər Kabinetinin müvafiq sərəncamları əsasında dövlət əsaslı vəsaiti qoyuluşu üzrə bölgüyə əsasən ayrılmış maliyyə vəsaiti hesabına xəstəxanada son tamamlama işləri aparılır.

Yeni tədris ilində rayonun Qızıldaş qəsəbəsindəki 180 nömrəli və Qobustan qəsəbəsində yerləşən 223 nömrəli tam orta məktəbi əsaslı təmir olunmuş və avadanlıqlarla təchiz edilərək məktəblilərin istifadəsinə verilmişdir. Məktəbin binasının dam örtüyü, qapı və pəncərələri, döşəmə və tavanı müasir tikinti materialları ilə təmir edilmişdir. Sinif otaqlarında, fənn laboratoriyalarında, idman və akt zallarında yenidənqurma işləri aparılmış, tədris ocağı mərkəzləşdirilmiş istilik sistemi ilə təmin edilmişdir.

Hesabat ilində rayonun Lökbatan, Ələt, Müşfiqabad və Çeyildağ qəsəbələrində 43330 kvadratmetr asfalt örtüyü vurulmuş, eyni zamanda rayonun Ələt, Lökbatan, Qobustan, Qızıldaş, Müşfiqabad, Korgöz və Ümid qəsəbələrində qəsəbədaxili yollara çınqıl və karbonat tökülərək 48300 kvadratmetr sahə hamarlanmış, asfalt örtüyünün vurulması üçün ilkin hazırlıq işləri görülmüşdür. Hesabat dövründə rayonun Lökbatan və Qobustan qəsəbəsində ümumi sahəsi 1950 kvadratmetr olan 2 istirahət parkı sakinlərin istifadəsinə verilmişdir. Eyni zamanda rayonun Lökbatan qəsəbəsində İ.Nəbiyev küçəsi 29 saylı binanın arxasında yeni nümunəvi həyət salınmışdır. Ümumilikdə cari ildə yolboyu yeni salınmış yaşıllıq sahələrinə 25000-dən artıq həmişəyaşıl ağaclar, 2500-dən çox 25-30 illik zeytun ağacları, 10600-ə yaxın dekorativ kollar, 41000-ə yaxın mövsümi güllər əkilmiş, 18000 kvadratmetr çəmən örtüyü salınmışdır.

2018-ci il ərzində rayonda əhalinin elektrik enerjisi, təbii qaz, istilik və içməli su təchizatının keyfiyyətli və davamlı təmin edilməsi və bu sahədə mövcud olan problemlərin aradan qaldırılması, həmçinin kanalizasiya şəbəkəsinin yaxşılaşdırılması istiqamətində zəruri işlər davam etdirilmişdir. 2018-ci ilin 9 ayı ərzində ümumilikdə 15960 metr qaz xətti, 3470 poqonmetr müxtəlif diametrli su və kanalizasiya xətti, 204088 metr müxtəlif gücə malik yeni kabel xətləri çəkilmiş və təmir edilmişdir.

Cari ilin oktyabr ayından rayonun Sahil qəsəbəsi, M.Seyidov küçəsi 13, 16 və Ə.Gülbabayev küçəsi 14 ünvanında sahəsi 1,7 ha çox olan ərazidə yeni abad məhəllə salınmış və eyni zamanda 350 nəfərlik xeyir-şər evi tikilib sakinlərin istifadəsinə verilmişdir. Qeyd olunan məhəllədə binaların blokları təmir olunmuş, blok işıqları və yeni giriş qapıları quraşdırılmış, binaların fasadı rənglənmiş, yeni dam örtüyü və həyətyanı sahəyə asfalt örtüyü vurulmuşdur. Ərazidə gənclərin asudə vaxtının səmərəli keçirilmələri üçün uşaq meydançası, kölgəliklər və açıq havada şahmat lövhəsi, işıqlandırma sistemi və videonəzarət kameraları quraşdırılmışdır. Eyni zamanda, Qaradağ rayonunda cari ildə aparılan genişmiqyaslı abadlıq-quruculuq işləri çərçivəsində Qızıldaş və Qobustan qəsəbəsində mədəniyyət-istirahət parkları yenidən qurulmuş və yaşlı insanların asudə vaxtının səmərəli təşkili üçün bütün şərait yaradılmışdır.

Nazirlər Kabinetinin "Bakı şəhəri Binəqədi və Qaradağ rayonunun sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər barədə" 8 saylı 22 yanvar 2016-cı il tarixli Qərarı ilə "Pilot layihə" formatında beş il müddətinə Qaradağ Rayon İcra Hakimiyyətinə mülki, mənzil, şəhərsalma və tikinti qanunvericiliklərinin tələblərinə əməl etməklə, şəhərin ümumi görünüşünə xələl gətirən, qəzalı vəziyyətdə olan və mövcud şəhərsalma normalarına cavab verməyən binaların, sosial və digər təyinatlı qeyri-yaşayış obyektlərinin sökülməsi və yenidən qurulması, dövlət mülkiyyətində olan torpaqların daimi istifadəyə və icarəyə verilməsi və mənzil fondunun yenilənməsi haqda tapşırıq verilmişdir.

Bu məqsədlə Qaradağ rayonunun Lökbatan, Sahil, Puta, Qızıldaş və Ələt qəsəbələrində XIX əsrin sonları və ötən əsrin əvvəllərində tikilmiş, 10960 nəfər yaşayan 274 qamış və taxta konstruksiyalı yaşayış binalarının söküntüsü, habelə Qaradağ rayonunun ərazisində yaşayış üçün yararsız olan binaların, sosial və digər təyinatlı qeyri-yaşayış obyektlərinin sökülməsi və yenidən qurulması pilot layihə olaraq 5 il müddətinə Qaradağ Rayon İcra Hakimiyyətininə həvalə olunmuşdur.

Qarşıya qoyulmuş vəzifələrin icrasının təmin edilməsi, görüləcək işlərin davamlılığının təşkil edilməsi məqsədilə Qaradağ rayonunda qəzalı vəziyyətdə olan binaların sökülərək yerində yeni binaların tikintisinin həyata keçirilməsi məqsədilə müvafiq tikinti şirkətləri ilə rayon icra hakimiyyəti arasında müqavilə bağlanmışdır. Qarşıya qoyulmuş tapşırıqların icrasının təmin edilməsi, görüləcək işlərin davamlılığının təşkil edilməsi məqsədilə rayonun Lökbatan qəsəbəsində qəzalı vəziyyətdə olan binaların sökülərək yerində yeni binaların tikintisinin həyata keçirilməsi məqsədilə "Azkomfort" MMC və "Babək-94" MMC ilə rayon icra hakimiyyəti arasında müqavilə bağlanmışdır. Bağlanmış müqaviləyə əsasən 2017-ci ilin 23 dekabr tarixində "Azkomfort" MMC tərəfindən Lökbatan qəsəbəsi Seymur Orucov küçəsində inşası başa çatdırılmış 55 mənzilli yeni yaşayış binası sakinlərin istifadəsinə verilmişdir. Hazırda "Azkomfort" MMC tərəfindən rayonun Lökbatan qəsəbəsində 6 çoxmənzilli yaşayış binası və 120 yerlik uşaq bağçasının, "Babək-94" MMC tərəfindən isə 2 çoxmənzilli yaşayış binasının və 60 yerlik uşaq bağçasının tikintisi davam etdirilir.

Əvvəlki illərdə olduğu kimi, 2018-ci ilin doqquz ayında da sosial-iqtisadi inkişaf təmin edilmiş, sosial infrastruktur layihələri uğurla reallaşdırılmış, eyni zamanda əhalinin həyat səviyyəsi daha da yaxşılaşdırılmışdır. Daxili imkanlardan səmərəli istifadə etməklə yeni istehsal və xidmət müəssisələri yaradılıb və nəticədə iqtisadiyyatın çoxsahəli inkişafına, məşğulluq səviyyəsinin yüksəldilməsinə, yeni sosial layihələrin həyata keçirilməsinə nail olunub.

Belə ki, sənaye sahəsində 2018-ci ilin yanvar-sentyabr aylarında 793 mln. 430 min manatlıq məhsul istehsal edilmiş və xidmətlər göstərilmişdir. 2018-ci ilin yanvar-sentyabr aylarında nəqliyyat sektorunda fəaliyyət göstərən müəssisələr tərəfindən 58 mln. 499 min manat həcmində xidmət göstərilmiş, əvvəlki ilin müvafiq dövrünə nisbətən 3,8 faiz artmışdır. 2018-ci ilin yanvar-sentyabr aylarında rabitə müəssisələri tərəfindən 146 min manat həcmində xidmət göstərilmiş, əvvəlki ilin müvafiq dövrünə nisbətən 5,2 faiz artmışdır. Hesabat dövründə istehlak bazarı dinamik inkişaf etməkdə davam etmiş və pərakəndə ticarət şəbəkəsindən rayon əhalisinə 1 milyard 185 mln 487 min manatlıq istehlak malları satılmışdır.

2018-ci ilin yanvar-sentyabr ayları ərzində rayonun sosial, iqtisadi sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 547 mln. 465 min manat məbləğində investisiya yönəldilmişdir ki, bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə müqayisəli qiymətlərlə 2,2 dəfə çox vəsait yönəldilmişdir. Tikinti sektorunda hesabat dövründə bütün maliyyə mənbələri hesabına 157 mln 609 min manat həcmində əsas fondlar istifadəyə verilmişdir. Əhaliyə göstərilən pullu xidmətlərin həcmi 98 mln. 340 min manat təşkil etmiş, əvvəlki ilin müvafiq dövrünə nisbətən 3,0 faiz artmışdır. Eyni zamanda rayonun Lökbatan qəsəbəsində yerləşən "Sədərək", "Binə", "Meyvəli" Ticarət Mərkəzinin fəaliyyəti yerli və xarici ölkələrdən gələn insanların ucuz qiymətlərlə alış-veriş etməsinə əlverişli şərait yaratmaqla rayonun ümumi əmtəə dövriyyəsinə müsbət təsir göstərməkdədir. 2018-ci ildə məşğulluğun təmin edilməsi istiqamətində də bir sıra tədbirlər həyata keçirilib. Bu tədbirlər sırasında yeni istehsal və xidmət sahələrinin yaradılması mühüm önəm kəsb edib. Həmin layihələrin reallaşdırılması ilə hesabat ilinin 9 ayında Qaradağ rayonunda 1708 daimi iş yeri yaradılıb. Bakı şəhərinin və onun qəsəbələrinin iqtisadi və sosial sahələrinin kompleks şəkildə inkişafı məqsədilə ölkə Prezidenti tərəfindən təsdiq edilən Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət proqramlarında Qaradağ rayonu üzrə nəzərdə tutulan bir sıra layihələr icra olunmuş və müəyyən qismi də icra olunmaqdadır.

Hazırda "Eskular Kommers" MMC tərəfindən rayonun Sahil qəsəbəsində Neft-Kimya sənayesi avadanlıqları istehsalı sahəsi, "Monolit-D LTD" firması tərəfindən rayonun Ələt qəsəbəsində sürtkü yağlarının istehsalı və satışı müəssisəsi, "Gilan Holdinq" MMC tərəfindən Sahil qəsəbəsində müasir ət kəsimi və emalı müəssisəsi, "İnter Qlass" SC tərəfindən Sahil qəsəbəsində şüşə qablar istehsalı zavodunun bazasında iki rəngli şüşə qablar istehsalı sahəsi, "Mətanət A" Şirkətlər qrupu tərəfindən Sanqaçal qəsəbəsində "Mineral Yun" istehsalı sahəsi, "Azqranata" MMC tərəfindən rayonun Lökbatan qəsəbəsində hazır məhsulların saxlanması və satışı üzrə logistika mərkəzi və "AAM" MMC Gəmi təmiri və logistika mərkəzinin yaradılması davam etdirilir. Eyni zamanda Lökbatan qəsəbəsində "ŞA-İnşaatçı" MKT tərəfindən 28 çoxmənzilli, Sahil qəsəbəsində "FR" Firması tərəfindən 3 çoxmənzilli, "OSKAR" MMC tərəfindən 5 çoxmənzilli və "Sapfir" MMC tərəfindən isə 5 çoxmənzilli yaşayış binasının tikintisi davam etdirilir. Səmərəli məşğulluğun və özünüməşğulluğun təmin edilməsində, işaxtaranların sosial müdafiəsinin gücləndirilməsində Prezident cənab İlham Əliyevin "Əhalinin özünüməşğulluğun təmin olunması sahəsində əlavə tədbirlər haqqında" 7 aprel 2016-cı il tarixli Sərəncamının uğurlu icrası da bu sahədə mühüm əhəmiyyətə malikdir.

Hesabat dövründə qarşılıqlı iqtisadi, mədəni əməkdaşlığın genişləndirilməsi və rayonun iqtisadiyyatına xarici investisiyaların cəlb edilməsi məqsədilə Rayon İcra Hakimiyyətinin başçısı Süleyman Mikayılov 04-07 fevral tarixində Çin Xalq Respublikasının Pekin, 25-29 iyun və 12-14 sentyabr tarixində Şenyanq şəhərində keçirilən beynəlxalq konfrans və sərgidə iştirak etmişdir. İqtisadiyyatın müxtəlif sahələrini təmsil edən 250-yə yaxın xarici iş adamları və dövlət rəsmiləri ilə keçirilən işgüzar görüşlərdə ikitərəfli əməkdaşlığın gələcək inkişaf prespektivləri müzakirə olunmuş, iş adamları arasında qarşılıqlı görüşlər təşkil edilmiş, iqtisadi, mədəni və turizm əlaqələrinin genişləndirilməsi, eyni zamanda xarici sərmayələrin cəlb edilməsi istiqamətində xarici iş adamları və rəsmi qurumlarla müvafiq protokollar imzalanmışdır. Keçirilən görüşlərdə xarici qonaqlara ölkəmizin iqtisadiyyatı və turizm imkanları, xarici iş adamları üçün yaradılmış əlverişli biznes və investisiya mühiti haqda və rayonun Ələt qəsəbəsində yaradılmaqda olan azad ticarət zonası tipli xüsusi iqtisadi zonanın əhəmiyyəti barədə ətraflı məlumat verilmişdir. Abadlıq-quruculuq tədbirləri ilə yanaşı sənayeləşmə siyasətinə uyğun olaraq növbəti illərdə də Qaradağ rayonunda yerli resurs və xammalla işləyən, ixrac qabiliyyətli məhsullar istehsal edən müəssisələrin yaradılması, dövlət əhəmiyyətli müəssisələrin fəaliyyətinin dəstəklənməsi, xarici və yerli investisiyaların cəlb edilməsi, özəl müəssisələrin fəaliyyətinə dəstək verilməsi istiqamətində işlərin davam etdirilməsi nəzərdə tutulub.

Prezident cənab İlham Əliyevin Qaradağ rayonuna çoxsaylı səfərləri zamanı söylədiyi **"rayonun iqtisadi və sənaye inkişafı sürətli gedir, Qaradağ rayonu Azərbaycanın güclü sənaye mərkəzinə çevrilir,"** sözlərindən ruhlanan rayon rəhbərliyi bu rayonun daha gözəl görkəm almasına və yeni istehsal və xidmət sahələrinin yaradılmasına çalışır. Burada bir istək də ondan ibarətdir ki, insanlar firavan və rahat yaşamaqla bərabər, bu rayonun sakini olmaqdan qürur duysunlar.

**Müşfiq MİRZƏ,**
**"Respublika".**





